# AFAD QURBANOV «ONOMALOGIYA MƏKTƏBININ YARADıCıSı» KIMI

**Zemfira İsaxan qızı Abbasova**
ADPU, Filologiya üzrə fəlsəfə doktoru
https://orcid/org/0000-0001-2673-8634
e-mail: zema.abbasova.aliyeva@mail.ru

**Xülasə:**Məqalədə Afad Qurbanovun Azərbaycan dilçiliyinə həsr etdiyi əsərlərdən və eyni zamanda Azərbaycan onomalogiyasının nəzəri əsaslarının tədqiqinə həsr edilmiş fundamental monoqrafiyadan bəhs edilir. Bu əsərlər Azərbaycan dilçiliyində və ümumiyyətlə, türkoloji dilçilikdə ilk dəfə olaraq xüsusi adların hərtərəfli linqvistik tədqiqinə həsr olunmuşdur. Afad Qurbanov bu əsərlərində fundamental onomastik təlimin nəzəri əsaslarını şərh etmiş, Azərbaycan dilində və bütövlükdə dünya dillərində xüsusi adların qruplarını müəyyənləşdirmişdir. Afad Qurbanov Azərbaycan dilçiliyi sahəsində elə bir ənənə qoyub getmişdir ki, bu ənənə hələ uzun tarixlər boyu yaşayacaq və onu da yaşadacaqdır.
**Açar sözlər:** Afad Qurbanov, onomologiya, linqvistik tədqiq, onomastika problemləri, xüsusi adlar.
**Summary:**The article talks about Afad Gurbanov's works dedicated to Azerbaijani linguistics and at the same time the fundamental monograph dedicated to the study of the theoretical foundations of Azerbaijani onomology. For the first time in Azerbaijani linguistics and Turkological linguistics in general, these works are devoted to a comprehensive linguistic study of proper names. In his works, Afad Gurbanov commented on the theoretical foundations of the fundamental onomastic teaching and defined the groups of special names in the Azerbaijani language and in the languages of the world as a whole. Afad Gurbanov has left such a tradition in the field of Azerbaijani linguistics that will continue to live for many years to come.

**Key words:** Afad Gurbanov, onomology, linguistic research, problems of onomastics, proper names.

## Giriş

Afad Qurbanovun «Onomalogiya məktəbinin yaradıcısı» kimi formalaşmasında, təbii ki, onomalogiyaya həsr etdiyi əsərləri xüsusi rol oynamışdır. Onun onomalogiya məsələlərinə dair 100-ə qədər məqaləsi, onlarca kitabı və bir neçə monoqrafiyası çap olunmuşdur.
Alimin bu sahədəki ən böyük müvəffəqiyyəti 1988-ci ildə nəşr edilmiş və 1989-cu ildə Dövlət mükafatına layiq görülmüş «Azərbaycan dilinin onomalogiyası» adlı mükəmməl və əhatəli monoqrafiyası olmuşdur. Əsərdə Azərbaycan dilçiliyində ilk dəfə olaraq onomastika problemləri elmi-nəzəri aspektdən şərh edilmişdir.

Professor A.Qurbanov onomalogiya problemlərinə xüsusi əhəmiyyət verərək 2004-cü ildə onomastika məsələlərinə dair 2 cilddən ibarət böyük fundamental monoqrafiya («Azərbaycan onomalogiyasının əsasları», I və II cildlər) nəşr etdirmişdir. Yüksək elmi səviyyədə və səlis dildə yazılan bu ikicildlik Azərbaycan onomalogiyasının nəzəri əsaslarının tədqiqinə həsr edilmiş fundamental monoqrafiyadır. Əsər Türkiyə və Rusiyada da çap edilmişdir.

Bu əsərlər Azərbaycan dilçiliyində və ümumiyyətlə, türkoloji dilçilikdə ilk dəfə olaraq xüsusi adların hərtərəfli linqvistik tədqiqinə həsr olunmuşdur. Afad Qurbanov bu əsərlərində fundamental onomastik təlimin nəzəri əsaslarını şərh etmiş, Azərbaycan dilində və bütövlükdə dünya dillərində xüsusi adların qruplarını müəyyənləşdirmişdir. Hazırda bu sahədəki bütün tədqiqatlar Afad Qurbanovun müəyyənləşdirdiyi qruplaşma əsasında aparılır.

Bundan başqa, tədqiqatçı-alim onomastik dil vahidlərinin yaranması və dəyişməsi, poetik və üslubi xüsusiyyətlərinin, orfoqrafik və orfoepik problemlərinin də nəzəri əsaslarını işləmişdir.

Əlavə olaraq, 1988-ci ildən bəri alimin «Dünyada türk adları» (2000), «Azərbaycanlı adları: uşağa necə ad seçməli» (1993), «Ad və insan» (2002), «Azərbaycanlı adları lüğəti» (2002), «Türk xalqlarında advermə ənənələri» (2002) və s. kimi kitabları, onomastikaya dair yüzlərcə məqaləsi çap olunmuşdur.

Professor Afad Qurbanovun yaratdığı onomastika məktəbinin və yazdığı elmi əsərlərin nəinki Azərbaycan dilçiliyinin, həm də türkoloji dilçiliyin sürətlə inkişafında xüsusi rolu olmuşdur. Onun onomastika sahəsindəki elmi fəaliyyəti həm yerli, həm də xarici görkəmli dilçilər, akademiklər tərəfindən çox yüksək qiymətləndirilmişdir.

Akademik M.Şirəliyev «Azərbaycanda onomastika məktəbi və onun gələcəyi» adlı məqaləsində yazır: «A.Qurbanovun «Azərbaycan dilinin onomalogiyası» adlı əsəri təkcə bizim dilçiliyimiz üçün deyil, dünya türkoloji dilçiliyi üçün də çox qiymətlidir. Mən tam məsuliyyətlə deyə bilərəm ki, Afad Qurbanov bu əsəri ilə Azərbaycan onomastika məktəbinin əsasını qoymuşdur».

1989-cu ildə İstanbulda nəşr edilən «Türk dünyası araşdırmaları» adlı sanballı elmi məcmuənin bir neçə səhifəsi bu əsərin təhlilinə həsr olunmuşdur. Rəyçi Xəlil Açıqgöz yazır: «Möhtərəm professor Afad Qurbanov illərdən bəri gözlədiyimiz türk və Azərbaycan onomastikasının nəzəri və əməli problemlərini böyük bir diqqətlə işləmişdir. Ona nə qədər təşəkkür etsək azdır. Kitabın qısa zamanda Türkiyə türkcəsilə nəşrini təmənna edirik. Əsər ölkəmizdə də nəşr edilərsə, türk onomastik araşdırmaları daha aydın işıqlandırılar».

Həmin kitab haqqında Almaniyanın Münhen şəhərində yaşayan tədqiqatçı Yasin Aslanın rəyi də diqqəti cəlb edir: «Bir azərbaycanlı olaraq Azərbaycan xalqına və elminə göstərdiyiniz xidmətlər üçün Sizi təbrik edir, müvəffəqiyyətlərinizin davam etməsini arzu edirəm. Vətən Sizin kimi övladları ilə fəxr etməlidir».

Afad Qurbanovun onomastika sahəsindəki sanballı işlərindən biri də Azərbaycan Ensiklopediyası xətti ilə təşkilatçılığı və redaktorluğu ilə 7 minə yaxın coğrafi adı əhatə edən «Azərbaycanın Toponimlər Lüğəti»ni ortaya çıxarmasıdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan Onomastika Cəmiyyətinin və Onomastika Elmi Mərkəzinin yaradılması, «Onomastika» elmi-onomastik jurnalının və 25 oktyabr Onomastika Gününün təsis olunması, onomastika problemlərinə həsr edilmiş genişmiqyaslı respublika konfranslarının keçirilməsi də bilavasitə Afad müəllimin adı ilə bağlıdır.

Professor Afad Qurbanovun yaratdığı «Azərbaycan onomalogiyası» elmi məktəbi bütün dünyada (ABŞ, Kanada, Finlandiya, Fransa, Belçika, Norveç, Türkiyə, Rusiya, İran və s.) tanınmışdır. Bir çox xarici ölkələrdə A.Qurbanovun rəhbərliyi ilə onomastik tədqiqatlar aparılmışdır. Məhz A.Qurbanovun rəhbərliyi ilə onomalogiyanın problemlərinə dair müxtəlif mövzularda onlarca namizədlik və doktorluq dissertasiyası müdafiə edilmişdir.

Onun şəxsi təşəbbüsü, təşkilatçılığı və gərgin əməyi nəticəsində 1986-cı ildən başlayaraq Azərbaycan onomastikası problemlərinə həsr olunan 13 respublika konfransı keçirilmişdir. Konfranslar əhatə miqyasına görə çox geniş olmuşdur. Burada keçmiş Sovetlər İttifaqının, demək olar ki, əksər müttəfiq respublikalarının elmi ictimaiyyət nümayəndələri iştirak etmişlər. Konfransların materialları tez bir zamanda kitab şəklində çap edilmişdir. Sonralar isə bu konfranslar ənənə xarakteri alaraq iki ildən bir keçirilməyə başlanmışdır.

Eyni zamanda, A.Qurbanovun təşəbbüsü ilə sədr müavini olduğu SSRİ Elmlər Akademiyasının Sovet Türkoloqları Komitəsinin tərkibində Türk onomastikası bölməsi yaradılmış və onomastik araşdırmalar bütün SSRİ-nin türkdilli respublikalarında aparılmağa başlanılmışdır.

Afad Qurbanov Azərbaycan dilçiliyi sahəsində elə bir ənənə qoyub getmişdir ki, bu ənənə hələ uzun tarixlər boyu yaşayacaq və onu da yaşadacaqdır.

A.Qurbanovun onomastika sahəsindəki fəaliyyətində əsas cəhətlərdən biri ustad elm xadimi kimi öz ardıcıllarını yetişdirmək və onların tədqiqi fəaliyyətini istiqamətləndirməkdən ibarətdir. Onun göstərişlərinə əsasən Azərbaycan onomastikası aşağıdakı elmi istiqamətlər üzrə tədqiq olunur:

1. antroponimika üzrə;
2. etnonimika üzrə;
3. toponimika üzrə;
4. hidronimika üzrə;
5. kosmonimika üzrə;
6. zoonimika üzrə;
7. ktematonimika üzrə.

Bu elmi istiqamətlər üzrə onomastikanın respublikamızda sürətli inkişafı və elmi tədqiqatların geniş vüsət alması məhz prof. Afad Qurbanovun məntiqi görüşlərinin, gərgin əməyinin bəhrəsidir.

A.Qurbanov onomastika üzrə yüzlərcə kitabın, elmi məcmuələrin nəşrinə rəhbərlik etmiş, elmi redaktoru olmuşdur, xeyli sayda dissertasiyalarda rəhbərlik edərək özünə layiq sələflər-davamçılar yetişdirmişdir. Məhz bu görkəmli elm xadiminin rəhbərliyi ilə 1987-ci ildə A. Ş. Hacıyev"Azərbaycan SSR şərq zonası rayonları (Sabirabad, Saatlı və İmişli) toponimlərinin linqvistik təhlili", 1986-cı ildə N.Ə.Əsgərov "Azərbaycan dilində hidronimlər" və K.K. Bəşirov "Azərbaycanın mürəkkəb toponimlərinin leksik-qrammatik xüsusiyyətləri", 1987-ci ildə Ə. Tanrıverdiyev "XVII-XIX əsr Azərbaycan antroponimləri (ədəbi-bədii materiallar əsasında)", 1989-cu ildə V. İ. İsrafilov "Gürcüstan SSR-in Azərbaycandilli oronim və hidronimləri", 1992-ci ildə M.C. Soltanov "Azərbaycan şimal-şərq zonasının (Quba, Xaçmaz, Dəvəçi və Qusar rayonlar) toponimlərinin linqvistik xüsusiyyətləri" mövzularında və daha neçə-neçə tədqiqatçı müxtəlif mövzularda dissertasiyalar müdafiə etmiş, onomastika məktəbinin davamçıları kimi meydana çıxmışdır.

Onomastik vahidlər yalnız dil faktı deyildir. Bu adlar, xüsusən toponimlər həm də mənsub olduğu xalqın tarixinə, iqtisadiyyatına, milli mədəniyyətinə və etnoqrafiyasına, məişət tərzinə, milli adət və ənənələrinə, flora və faunasına və s. aid çox faydalı məlumatları mühafizə edib saxlayan söz xəzinələridir. Bu əsasda V. İ. İsrafilov və Ə. M. Rüstəmovun tədqiqatlarında qonşu respublikaların Azərbaycan mənşəli coğrafi adlarıtədqiqata cəlb edilmiş, dilimizin toponimik arealı müəyyənləşdirilmiş, bir sıra dəyişdirilmiş adların ilkin forması bərpa edilərək dünya ictimaiyyətinə çatdırılmışdır.

A.Ş. Hacıyevin, N. Ə. Əsgərovun, K. K. Bəşirovun, M. C. Soltanovun dissertasiyalarında respublikamızın ərazisindəki bir çox coğrafi adlar linqvistik analizdən keçirilərək tədqiq edilmiş, etimoloji açıqlamalar verilmişdir. Ə. V. Tanrıverdiyevin tədqiqatında XVII-XIX əsr Azərbaycan antroponimləri ədəbi-bədii materiallar əsasında toplanaraq tarixi aspektdə təhlilə cəlb olunmuş, maraqlı elmi nəticələr əldə edilmişdir.

Fəxrlə qeyd etmək lazımdır ki, alimin onomalogiya problemləri ilə bağlı tədqiqat aparan aspirant və dissertantları təkcə Şimali Azərbaycandakı kadrlarla məhdudlaşmır. İndi Türkiyə, İran, Rusiya, Moldova, Gürcüstan kimi ölkələrdə də Afad Qurbanovun rəhbərliyi ilə onomastik tədqiqatlar aparılır.

Əsası A. Qurbanov tərəfindən qoyulmuş Azərbaycan onomastika məktəbi möhkəm özül üzərində qurulmuş, düzgün elmi istiqamət götürmüşdür. Bu məktəbin layiqli davamçıları yetişmişdir və geniş perspektivləri hələ qarşıdadır.

Professor Afad Qurbanovun yaradıcılıq işinin bir istiqamətini də onun elm sahəsindəki təşkilatçılıq fəaliyyəti təşkil etmişdir. Görkəmli alim Afad Qurbanov bu fəaliyyəti ilə də həmişə seçilmiş, respublika ictimaiyyətinin diqqətini cəlb etmişdir. O, daim Azərbaycan elminin inkişafı barədə düşünmüş və bu yolda var qüvvəsini əsirgəməmişdir.

Afad Qurbanov ali məktəbdəki fəaliyyəti dövründə dilçilik fənləri tədrisinin keyfiyyətini yüksəltməklə yanaşı, daim rəhbərlik etdiyi Azərbaycan dilçiliyi kafedrasının elmi potensialının artmasına səy göstərmiş, kafedranın elmi-tədqiqat işlərini müasir elmin tələbləri səviyyəsinə qaldırmağa nail olmuşdur. Onun rəhbərliyi altında kafedrada konkret dilçilik mövzularına həsr olunmuş elmi seminarlar keçirilmiş və bu seminarların materialları onun rəhbərliyi ilə məcmuə şəklində nəşr edilmişdir.

Afad müəllim 1986-cı ildə Azərbaycan dilçiliyi kafedrası nəzdində respublikanın elmi həyatında ilk dəfə olaraq Onomastik elmi mərkəz yaratmış, sonradan həmin mərkəz elmi-tədqiqat problem laboratoriyasına çevrilmiş və burada Azərbaycan onomastikasının müxtəlif problemlərinə dair elmi-tədqiqat işləri aparılmışdır.

Akademik Afad Qurbanovun elmi-təşkilatçılıq qabiliyyəti müdafiə şuralarının sədri vəzifələrində çalışdığı dövrlərdə özünü daha aydın şəkildə göstərmişdir. Ötən əsrin 80-ci illərində Filologiya Elmləri üzrə Müdafiə Şurasının və Pedaqogika Elmləri üzrə Müdafiə Şurasınınonun sədrliyi ilə aparılan iclasları həmişə mütəşəkkil şəkildə keçmiş, şuralara təqdim edilmiş dissertasiyalar müvəffəqiyyətlə müdafiə edilmiş və hamısı Ali Attestasiya Komissiyası (AAK) tərəfindən yekdilliklə təsdiq edilmişdir. Şuraların və onların sədri Afad Qurbanovun ünvanına AAK-dan yaxşı işinə görə həmişə təşəkkür məktubu gəlmiş, xoş sözlər deyilmişdir.

Professor Afad Qurbanov respublika elmi ictimaiyyətində Azərbaycan dilçiliyinin müxtəlif problemlərinə həsr olunmuş elmi konfransların təşkilatçısı kimi tanınmışdır. O, 1986-cı ildən başlayaraq Azərbaycan onomastikası problemlərinə, 1987-ci ildə Azərbaycan nitq mədəniyyəti məsələlərinə, 1988-ci ildə isə Azərbaycan terminologiyası problemlərinə həsr olunmuş respublika miqyaslı elmi konfransların keçirilməsini təşkil etmişdir. Fərəhli haldır ki, keçirilmiş bütün konfransların materialları məcmuə şəklində toplanmış, nəfis kitab şəklində çap edilmişdir.

Görkəmli alim beynəlxalq elmi məclislərdə, konfrans və simpoziumlarda yaxından iştirak etmiş, 1988-ci ilin sentyabr ayında Türkiyənin İstanbul şəhərində keçirilən VI Millətlərarası Türkoloji Konqresdə nümayəndə heyəti tərkibində respublikamızı, elmi ictimaiyyətimizi təmsil etmişdir.Alimin Azərbaycanda toponimik tədqiqatlar haqqında oxuduğu məruzə konfrans iştirakçılarının böyük marağına səbəb olmuş, türk alimlərindən professor Nuri Yuce, professor Tunçer Gülensoy, çinli alim Qulam Qafur öz çıxışlarında Afad Qurbanovun məruzəsinin orijinallığı və yüksək elmi-nəzəri səviyyəsi barədə xüsusi bəhs etmişlər.

Afad Qurbanovun həyatının böyük bir hissəsi, qırx ildən çox Azərbaycan Elmlər Akademiyası ilə bağlı idi. O, Azərbaycan Elmlər Akademiyasının üzvü kimi elmi yaradıcılıq fəaliyyətini Elmlər Akademiyası ilə daim sıx əlaqəli aparmaqla dilçilik elminin inkişaf etdirilməsində öz səylərini əsirgəməmişdir.

A.Qurbanov Azərbaycan Milli Elmlər Akademiyasında Terminologiya Komitəsinin, Dövlət dili haqqında qanun layihəsinin hazırlanması ilə bağlı Komissiyanın, Adlar və Soyadlar üzrə Xüsusi Komissiyanın, Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının, Müdafiə Şurasının, İctimai Elmlər üzrə Əlaqələndirmə Şurasının, Elmlər Akademiyasının yeni nizamnamə layihəsinin hazırlanması və strukturunun təkmilləşdirilməsi üzrə Komissiyanın və digər bir çox komissiyaların fəal üzvü olmuş, gərgin və səmərəli fəaliyyəti, yüksək elmi-təşkilatçılıq qabiliyyəti ilə seçilmişdir.

Afad Qurbanovun Azərbaycan Milli Elmlər Akademiyasının Adlar və soyadlar üzrə xüsusi komissiyasının üzvü kimi azərbaycanlı adlar və soyadların seçilməsində vahid qaydanın müəyyən olunması sahəsində fəaliyyəti xüsusi qeyd edilməlidir. A.Qurbanovun irəli sürdüyü «Azərbaycanlı soyadları haqqında» əsaslandırılmış təklifi əsas konsepsiya kimi qəbul olunmuş və bununla A.Qurbanov öz xalqının milli varlığını qoruyaraq azərbaycanlı soyadlarını düzəldən vahid formantı (-lı, -li, -lu, -lü) müəyyən etmişdir. Eyni zamanda, A.Qurbanov azərbaycanlı adlarını özündə ehtiva edən, şəxsi adlar nəzəriyyəsini əks etdirən və

adseçmə (advermə) ənənəsini müəyyən edən «Azərbaycanlı şəxs adları Ensiklopediyası»nı hazırlayaraq nəşr etdirmişdir.

Eyni zamanda, A.Qurbanov 1984-1989-cu illərdə SSRİ Elmlər Akademiyası Sovet Türkoloqları Komitəsinin üzvü, Türk onomastikası bölməsi bürosunun üzvü, Tədris-metodiki bölməsinin rəhbəri, sonradan həmin Komitənin sədr müavini vəzifələrində çalışmış və elmi təşkilatçılığını bütün sovet məkanında göstərmişdir.

Bundan başqa, Afad Qurbanov 1985-ci ildə Aşqabadda keçirilmiş IV Ümumittifaq Türkoloji Konfransda, 1986-cı ildə Daşkənddə keçirilmiş XXIX Beynəlxalq Altayşünaslıq Konfransında, 1988-ci ildə Moskvada keçirilmiş Xalq Təhsili İşçilərininin Ümumittifaq Qurultayında, 1990-cı ildə İstanbulda keçirilmiş Azərbaycan Cəmiyyətlərinin I Qurultayında, Türkiyənin Qeysəriyyə şəhərində keçirilmiş I Millətlərarası Böyük Azərbaycan Konqresində, 1991-ci ildə Türkiyənin Adana şəhərində təşkil olunmuş II Uluslararası Simpoziumda və başqa beynəlxalq məclislərdə məruzələr oxumuş, elmi ictimaiyyətimizi yüksək səviyyədə təmsil etmişdir.

Hər bir elm xadiminin fəaliyyətinin vacib sahəsini çalışdığı ixtisas üzrə elmi kadrlar yetişdirmək işi təşkil edir. Görkəmli dilçi-alim və mahir pedaqoq Afad Qurbanovun respublikamız üçün yüksək ixtisaslı müəllim və filoloq-alimlərin hazırlanması işində böyük xidmətləri olmuşdur. O, nadir alimlərə nəsib ola biləcək ziyalı mühiti yarada bilmişdir.

Akademik Afad Qurbanov ölkəmiz üçün minlərlə yüksək ixtisaslı müəllim hazırlamış, habelə çox sayda filoloq-alimlərin formalaşdırılması məsələsinə xüsusi diqqət yetirərək 60-dan çox elmlər namizədi və doktoru yetişdirmişdir. Həmin elmi və pedaqoji kadrlar yüksək potensialı, intellektual səviyyəsi ilə həmişə seçilmişlər. Bir faktı qeyd etmək yerinə düşər ki, A.Qurbanovun rəhbərlik etmiş olduğu Azərbaycan dilçiliyi kafedrasının əməkdaşlarından 9 nəfəri 10 ildə doktorluq dissertasiyası uğurla müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi və professor elmi adını almışdır. Həmçinin Afad Qurbanovun ailəsində də həyat yoldaşının elmlər namizədi, beş övladının isə elmlər doktoru kimi formalaşmasında xüsusi rolu olmuşdur.

Elmə gəlmək istəyən gənc dilçilərə Afad Qurbanov yüksək həssaslıq və qayğı ilə yanaşmışdır. O, hesab etmişdir ki, qayğı və həssas münasibət tələbkarlığı azaltmamalıdır. Qayğı pərdəsi altında zəif və heç bir elmi qabiliyyəti olmayan kadrların elmə axınına yol vermək olmaz.

Afad Qurbanov belə düşünürdü ki, elmi fəaliyyət sahəsinə qədəm qoyan hər bir tədqiqatçı üçün əsas və ilkin şərtlərdən biri onun seçdiyi elmin vəziyyətini, dünya elmləri sistemində yerini, digər elmlərdən fərqli olan başlıca əlamətlərini bilməsidir.Elm nümayəndəsi tədqiq etdiyi elm sahəsinin keçmişi, indisi və gələcəyi ilə maraqlanmalı, dərin axtarışlar, geniş müşahidələr əsasında elmi məsələlərin tədqiqi istiqamətlərini özü üçün müəyyənləşdirməkdə əməyini əsirgəməməlidir.

Afad Qurbanov təsadüfi mövzuları, elmi əhəmiyyəti olmayan problemlərin araşdırılmasını lüzumsuz hesab etmişdir. Onun fikrinə görə, mütəxəssis, o cümlədən də dilçi-tədqiqatçı öz sahəsini dərindən bilməli, tədqiq olunan problemin mahiyyətini, kökünü aydınlaşdırmağa cəhd göstərməlidir.

Afad Qurbanovun rəhbərliyi ilə müdafiə olunmuş dissertasiya işlərini mövzularına görə şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar: dil və üslub, müasir Azərbaycan dilinin qrammatikasının müxtəlif problemləri, onomastika məsələləri, dil əlaqələri, dil nəzəriyyəsi və dil tarixi.

A.Qurbanovun gərgin fəaliyyəti sayəsində püxtələşən elmi-pedaqoji kadrlar nəinki Azərbaycanın, həm də Rusiyanın, Türkiyənin, Almaniyanın, Gürcüstanın, Türkmənistanın, Qazaxıstanın təhsil və elm ocaqlarında uğurla çalışırlar. O, həmişə yetirmələrinin xoş sorağından qürur hissi keçirmiş, əməyinin hədər getməməsinə sevinmişdir.

Elmin inkişafında və yüksək ixtisaslı kadrların hazırlanmasında xidmətlərinə görə Afad Qurbanov dəfələrlə dövlət başçısının, respublika Ali Soveti, Elmlər Akademiyası və Təhsil Nazirliyinin fəxri fərmanlarına, mükafatlarına, 1981-ci ildə isə Azərbaycan SSR-i «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüşdür. Onun bu sahədəki işi həmişə Ali Attestasiya Komissiyası tərəfindən də yüksək qiymətləndirilmişdir.

Nəticə

Professor Afad Qurbanov artıq 70-ci illərdən keçmiş Sovetlər İttifaqının, eləcə də dünyanın dilçilik və türkologiya elmi məkanına daxil olmuşdur. O, 1984-1989-cu illərdə Moskvada SSRİ Elmlər Akademiyası Sovet Türkoloqları Komitəsinin üzvü (o vaxt Komitənin sədri akademik Andrey Nikolayeviç Kononov, sədr müavini akademik Edxem Raximoviç Teneşev olmuşdur), Tədris-Metodiki Bölməsinin sədri, Türk Onomastikası Bölməsi bürosunun üzvü və sonradan həmin Komitənin sədr müavini (o zaman Komitənin sədri akademik Edxem Raximoviç Teneşev idi) vəzifələrində çalışan zaman bütün sovet məkanında türkoloqların hazırlanmasında böyük işlər görmüş, bilik və bacarığını əsirgəməmişdi. Məhz həmin dövrdə formalaşmış türkoloqlar hazırda postsovet məkanı müstəqil dövlətlərində səmərəli fəaliyyət göstərirlər.

Afad Qurbanovun rəhbərliyi altında dissertasiya yazmış və müdafiə etmiş dilçilər onun haqqında böyük iftixar və qürur hissi ilə danışır, onun yetişdirməsi olmaları ilə fəxr etdiklərini həmişə bildirirlər. Kadr yetişdirmək təkcə elmi rəhbərlik etmək demək deyildir. Onun yaratdığı «Azərbaycan onomalogiyası» elmi məktəbində hər il yetişən dilçi mütəxəssislər, haqlı olaraq, özlərini Afad Qurbanovun şagirdi, tələbəsi hesab edirlər.

**Ədəbiyyat:**

1. Afad Qurbanov və onun onomastika məktəbi. /red.N.Xudiyev, Bakı, Gənclik, 1999, 32 səh.
2. Afad Qurbanov-70. Bakı, Elm, 1999, 92 səh.
3. Qurbanov A. Azərbaycan dilçiliyi problemləri. 13 cilddə, I c., Bakı, Nurlan, 2004, 444 səh.
4. Qurbanov A. Azərbaycan dilçiliyi problemləri. 13 cilddə, II c., Bakı, 2009, 280 səh.
5. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları. 2cilddə, I c., Bakı, Nurlan, 2004, 340 səh.
6. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları. 2cilddə, II c., Bakı, Nurlan, 2004, 504 səh.
7. Qurbanov A.Qərbi Azərbaycanın Cucikənd şivəsi.Bakı, 2007, 112səh.
8. Qurbanov A.Qərbi Azərbaycanın Cucikənd yazılı abidələrinin kəşfi. Bakı, 2007, 96 səh.
9. Qurbanov A.Ümumi dilçilik. Dərslik. Bakı, Nurlan, 2004, 532səh.
10. Qurbanov A.Müasir Azərbaycan ədəbi dili. 2 cilddə, I c., Bakı, Elm və təhsil, 2010, 452 səh.